# Türkiyə Bursları Bələdçisi

## Türkiyə Bursları kim tərəfindən verilir?

Türkiyə Bursları Türkiyə dövləti (hökuməti) tərəfindən verilir, bu işi həyata keçirən qurum Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı olduğu üçün onu bəzən **YTB bursları** da adlandırırlar. Bu qurum Türkiye Kültür ve Turizm Bakanlığına tabedir.

Qurumun adındakı Yurtdışı Türkler ve Akraba Topluluklar sözlərinə baxmayaraq, təqaüd (burs) **istənilən xarici ölkənin vətəndaşına** verilir.

## Türkiyə Bursları yalnız bakalavr təhsili üçünmü verilir?

Burs yalnız **bakalavr** deyil, **magistr** və **PhD (doktorantura)** dərəcələri almaq istəyənlər üçün də verilir. Həmçinin ayrıca elm adamları üçün **araşdırma bursları** verilir.

## Bursla nə qazanmış olursunuz?

- **Universitetə qəbul.** Bursa müraciətdə önəm verilmə sıralaması ilə12 fərqli proqramı seçə bilərsiniz, onlar fərqli universitetlərdən ola bilər.
- **Təhsil haqqından azad olunursunuz**, daha doğrusu onu YTB ödəyir.
- **Pulsuz yataqxana.**
- **Pulsuz dövlət tibbi sığortası.**
- **Gediş və gəliş bileti** (təhsil başlarkən və bitərkən)
- **1 illik türk dili hazırlığı.**
- **Aylıq xərclər üçün pul təqaüdü.** Onun miqdarı hazırda belədir:  Bakalavr( Lisans): 1.700 TL, Magistr (Yüksek Lisans): 2.400 TL, Doktorluq (Doktora): 3.000 TL
- **Staj proqramları, YTB Akademisində müxtəlif təlimlər.**

# Müraciət üçün hansı şərtlər var?

## *Minimum akademik göstərcilər:*

- **Bakalavr namizədləri** (tibb, diş həkimliyi, əzcaçılıq xaric) son üç ilin qiymət ortalaması minimum : %70
- **Tibb, diş həkimliyi, əzcaçılıq** proqramları üçün son üç ilin qiymət ortalaması minimum: %90
- **Magistratura** təhsili üçün namizədlər bakalavr qiymət ortalaması minimum: %75

## *Yaş tələbləri*

- **Bakalavr** dərəcəsi üzrə müraciət edən şəxslər 21 yaşdan kiçik olmalı.
- **Magistratura** dərəcəsi üzrə müraciət edən şəxslər 30 yaşdan kiçik olmalı.
- **Doktorantura dərəcəsi** üzrə müraciət edən şəxslər 35 yaşdan kiçik olmalı .
- **Araşdırma bursu** üçün müraciət edən şəxslər 50 yaşın altında olmalıdır.

# Kimlər müraciət edə bilməz?

- Türkiyə vətəndaşları olan şəxslər, həmçinin nə vaxtsa Türkiyə vətəndaşı olmuş şəxslər Türkiyə Burslarına müraciət edə bilməzlər.
- Türkiyədə təhsil alan tələbələr bu təqaüdə müraciət edə bilməzlər.

# Müraciət etmək üçün lazım olan əsas sənədlər:

- Şəxsiyyət vəsiqəsi və ya xarici pasport;
- Namizədin son bir ay ərzində çəkilmiş şəkli;
- Attestat, diplom və ya məzun olacağı barədə məktəbdən, yaxud universitetdən arayış (bu dərs ilində məzun olacağı barədə);
- Akademik transkript, bakalavra müraciət edənlər üçün son üçün ilin qiymətlərini göstərən transkript;
- Ən azı iki tövsiyə (referans) məktubu;
- Müraciətə daxil ediləcək niyyət məktubu (esse).

BİLİK Tədris Mərkəzi

# Müraciəti gücləndirən əlavə sənədlər

## İmtahan nəticələri

- Öz ölkəndə verilmiş imtahan nəticələri: DİM, buraxılış və s.
- Beynəlxalq imtahan nəticələri: SAT, AP, GRE, GMAT, DELF, YDS, TR-YÖS, YÖS və s.

## Olimpiada və bilik müsabiqələrinin nəticələri

- Olimpiadalar və bilik yarışlarında iştirak və qaliblik sertifikatları.

## Müəlliflik, ixtira

- Araşdırma, məqalə, projelərdə, kitablarda müəlliflik haqqında sənədlər.

-İxtiralar barədə sənədlər.

## İdman uğurları

Bütün dünyada universitetlər və təqaüd proqramları idman uğurlarını yaxşı kriteriya kimi dəyərləndirir.

## Təlim və bacarıqlar barədə sertifikatlar

Tutaq ki, yazı bacarıqları və yaxud ilk tibbi yardım barədə təlim keçmisiniz. Yaxud tibbi əməliyyatlarda müşahidəçi olmusunuz. İstənilən təlim və bacarıqları təsdiq edən sənəd sizin müraciəti gücləndirir.

## Sosial aktivlik sertifikatları

- İctimai vəzifələr tutmaq;
- Sosial lahiyələrdə iştirakçı və ya lider olmaq;
- Sosial yardım işlərində fəallıq;
- Milli və bəşəri hədəflərə bağlıq tədbirlərdə iştirak, təşəbbüs.
- Könüllü fəaliyyəti.
- Türkiyə ilə bağlı tədbirlərdə iştirak.

## Dil sertifikatları

Türki dili və xarici dil bilməyinizi sübut edən yetərlilik sənədləri müraciəti gücləndirir. Üstəlik, ingiliscə təhsil almaq istəyənlər üçün İELTS, TOEFL sertifikatları vacibdir.

BİLİK Tədris Mərkəzi

# Referansların sayı və məzmunu barədə

**Əsas məqam.** Referanslar sizin barədə tövsiyədir. Deməli, sizi yaxşı tanıyan adamlardan alınmalıdır.

Məktəb rəhbərliyindən və müəllimlərinizdən alınan referansları verənlərin sizi tanımasında problem yoxdur.

Amma biz məsləhət edirik ki, siz məktəb heyətindən alınmış tövsiyələrlə məhdudlaşmayasınız. Tanınmış professorlar, ictimai xadimlər və Türkiyə məzunlardan, sizin haqqınızdan yüksək təəssürat yaradacaq tanınmış və nüfuzlu adamlardan da tövsiyə məktubları almağınız yaxşı olardı.

Bu referans məktublarından onların sizi necə tanınması qeyd olunmalıdır.

**Sayı.** Məktəb rəhbərliyi və müəllimlərdən 3, digər şəxslərdən azı 2 tövsiyə məktubun olmasını məsləhət görürük. O müəllimlərdən reverans alın ki, sizin seçdiyiniz ixtisasa yaxın fənni tədris edib.

**Mötəbərlilik.** Komissiya sizə referans verən şəxslərlə əlaqə saxlaya bilər. Onların email və mobil telefonu referans məktubunun sonunda qeyd olunmalıdır.

BILIK Tədris Mərkəzi

# Yaxşı niyyət məktubu (esse) çox önəmlidir

Özünüzü və arzunuzu aydın, təsirli, maraqlı təqdim etməlisiniz. Yüksək akademik göstəriciləri olan, yaxud olimpiadaçılar zəif bir esse ilə burs qazana bilər. Amma yaxşı esse komissiya tərəfindən diqqətlə oxunur və yüksək qiymətləndirilir.

Nümunələrə baxın, günlərlə düşünün, niyyət məktubunuz üçün yaxşı bir hekayənizi yaradın. Alınmırsa təcrübəli adamlardan kömək istəyin…

Essedə oxuduqdan sonra Vətənə dönəcəyinizi vurğulamanız yaxşı olar.

**Esse üçün iki sual qoyulur:**

1) Niyə bu proqramı seçirsiniz və daha sonra nə etmək istəyirsiniz?

2) Niyə Türkiyəni seçirsiniz?

# Tibb, diş həkimliyi və bilgisayar mühəndisliyini qazanmaq daha çətindir

Tibb, diş həkimliyi və bilgisayar mühəndisliyi üçün daha çox yer verilir, amma bu ixtisaslara müraciət də hədsiz çox olur deyə, ciddi rəqabət olur.

# Hansı şəhərlərə üstünlük verilir?

Siz 12 proqram seçə bilərsiniz və hər birində universiteti də göstərməlisiniz. YTB tövsiyə edir ki, universitetlərin ən çoxu 6-sı 3 böyük şəhərə (İstanbul, Ankara, İzmir) aid ola bilər. Qalanları fərqli vilayətləri təmsil etməlidir. Böyük şəhərləri qazanmaq daha böyük rəqabətə girməkdir.

**Qeyd:** Müraciətdə soruşulur: istərsinizmi ki, komissiya sizi seçimlərinizdən kənar bir ixtisas və ya universitetə yerləşdirsin. Cavabınız "hə" və ya "yox" ola bilər.

BILIK Tədris Mərkəzi

# Müraciət necə olur?

Bursa müraciət yalnız onlayn şəkildə aşağıdakı keçiddən qeydiyyat olunmaqla həyata keçirilir:

https://tbbs.turkiyeburslari.gov.tr/

# Müraciətdəki sənədlərin dili

Sənədlər türkcə və ya ingiliscə ola bilər. Başqa dildə olan sənədlər bu iki dildən birinə notarial təsdiqli tərcümə olunmalıdır.

# Müraciət tarixi

Müraciətlər **10 yanvar-20 fevral** tarixlərində olur. İlkin mərhələni keçənlər mulakata (müsahibəyə) dəvət olunur. Mülakat Bakıda da keçirilir.

# Burs sınavı

Son iki ildə Türkiyə bursları birinci mərhələni adlayanlara (mulakata -müsahibəyə dəvət olunanlara) imtahanda iştirak tələbi də gəlir. 50 suallıq sınav Tr YÖS tipində bir imtahandır. İmtahanda maksimum nəticə qazanmağınız şərt deyil. 50 sualdan 30 düzü olanlar da burs qazana bilib. Amma nəticənin yüksək olması şansı gücləndirir.

# Nəticələr

Nəticələr avqustun ilk yarısında elan olunur.

# Bilik Tədris Mərkəzinin Türkiyə Bursları təcrübəsi

Bilik Tədris Mərkəzi hər il çox sayda namizədin müraciətin həyata keçirir. Çox sayda namizədə burs qazandıra bilib.

Mərkəzimiz bu sahədə ən böyük YÖS və Xaricdə Təhsil mərkəzləri rəqabət aparır, uzun illərin təcrübəsi ilə üstünlüyə sahibdir.

Xidmətlərimiz daha yüksək və daha ucuzdur.

BILIK Tədris Mərkəzi

# Mülakat rəhbəri

## Mülakata nə ilə getməli?

1. Xarici pasportun özü
2. Mülakat dəvəti sənədi, aday sənədi;
3. **Diqqət!** Əlavə olaraq, sizin müraciəti gücləndirəcək yeni sənədlər və hər şey: yeni imtahan (DİM, TR YÖS, YÖS və s) balı, varsa yeni uğur sənədləri (olimpiada, yarış, sosial aktivlik, ailəyə aid sənədlər və s. Bunlar varsa, ayrıca götürün və onu ayrıca təqdim edim. Hətta deyə bilərsiniz ki, bu mənim yeni uğurum və ya nəticəmdir.

## Geyim tərzi

Heç bir tələb yoxdur, amma təhsil ortamına uyğun geyinmək məsləhətdir.

## Davranış tərzi

1. Daxili rahatlığınız önəmlidir, hətta onu hiss etdirməlisiniz.
2. Höcətliyin və yersiz mübahisənin faydası olmaz, amma öz fikrini müdafiə edən, fərqli fikir də deməyi bacaran, diribaş namizədlər komissiyanın arzu etdiyi keyfiyyətlərdir.
3. Siz cırnatmağa çalışa bilərlər, rahat olun, sizi öyrənmək üçün bunu edirlər, rahat və doğru cavablar verməyə çalışın.

## Özünü təqdimat

1. Daxil olan kimi, salam verib, sualı gözləmədən özünüzü qısa və yaxşı cəhətlərinizi ifadə etməklə təqdim etməlisiniz!

Ona görə də "özünüzü necə təqdim edərdiniz?" sualına hazırlaşın. Bunu qısa olaraq yazmaq da olar!

2. İlk fürsətdə yeni uğurlarınızı da özünüzü təqdim edərkən sadalaya bilərsiniz.
3. Yaxşıca düşünün: nəyi xüsusi qabartmaq istəyərdiniz? Hansısa uğrunuzumu? Olsun. Qaçqın olmağınızımı? Qardaş və bacınızın uğurunumu? Hansısa projenizimi? Ailə durumunuzumu? Ata, ana, baba və ya nənənizin kimliyimi? Bu lazımdırmı? Faydalı ola bilərmi? Bəlkə Türkiyə ilə bağlılıq? Bütün bu suallara aid faydalı saydığınız nə varsa, fürsət tapıb deyin.
4. Özünüzü təqdimata hazırlaşın!

## Gələcək planlar barədə

Gələcək planlarınızı qısaca hazırlayın və yadda saxlayın. Gələcək planlarınızın ölkəyə qayıtmaqla bitməsi arzu ediləndir.

## Taktika

Nəyisə deməyə sanki imkan vermirlər, başqa sualın cavabının sonunda, sizə bir əlavəm var deyib: nəzərdə tutduğunuzu söyləyin..

## Türkiyəyə sevgini necə izah edəcəksiniz?

Buna öz cavabınızı hazırlayın.

## Niyə Türkiyədə oxumaq istəyirsiniz?

Buna öz cavabınızı hazırlayın.

## Niyə bu ixtisası (proqramı) seçirsiniz?

1. Buna öz cavabınızı hazırlayın.
2. Bu ixtisas üzrə məşhur professorlar və uzmanlardan bir neçəsinin adını öyrənin. Onlar sizin seçdiyiniz universitetdən olsalar, daha yaxşıdır.

## Niyə bu universiteti seçirsiniz?

Universitet barədə qısaca məlumat toplayın, uğurlarını öyrənin.

## Hansı suallar verilir?

1. Yuxarıda qeyd etdiyimiz və onlara yaxın suallar az qala hamıya verilir.
2. Özünüzə yönəlik sual ola bilər. Ailə durumuna, uğurlara baxıb suallar verə bilərlər.
3. Türkiyə və Azərbaycana aid, onun bu günü və tarixi barədə suallar verə bilərlər.
4. Ümumi dünyagörüşü sualları verə bilərlər.
5. Kimya və biologiyaya aid çox populyar suallar verilə bilər.
6. Tibbə və diş həkimliyinə aid populyar suallar verilə bilər.

## Hansı suallar önəmli?

Heç bir sual xüsusi önəmli deyil. Nəyisə cavablandıra bilməmək, yaxud yaxşı cavablandıra bilməmək yolunuzu kəsmir. Ümumi performansa baxıb yekun bal verirlər.

## Suala cavabı bilməyəndə nə etməli?

Sualın ətrafında da olsa danışın. Yaxud "bilmirəm" demək əvəzinə, yaxud susmaq əvəzinə, "bir az həyəcanlı olmuşam, unutdum deyəsən", "daha çox matematik imtahanlarına hazırlaşdığımdan (yaxud YÖS-ə, DİM-ə) vaxt darlığım olub, universitet dövründə bu mövzuları mükəmməl öyrənəcəyəm" kimi cavablar verin.

BİLİK Tədris Mərkəzi